**AZƏRBAYCAN RESPUBLİKASI**

**AĞCABƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

№ 97 "7" iyun 2021-ci il

**Ağcabədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə Komissiyanın yaradılması haqqında rayon İcra Hakimiyyəti başçısının 4 noyabr 2014-cü il tarixli 189 nömrəli sərəncamına dəyişiklik edilməsi barədə**

Rayon İcra Hakimiyyəti başçısının 13.06.2014-cü il tarixli 99 nömrəli sərəncamı ilə yaradılmış və 04.11.2014-cü il tarixli 189 nömrəli sərəncamı ilə tərkibində dəyişiklik edilmiş komissiyanın sədrinin və bir sıra üzvlərinin əvvəlki vezifələrindən azad olunduqlarını nəzərə alaraq yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin təşkilində vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının iştirakı, dövlət və yerli özünüidarəetmə orqanlarının ictimaiyyətlə məsləhətləşməsi və ictimai rəyin nəzərə alınması üçün yaradılacaq rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədilə "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.05.2014-cü il tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"ni və "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci maddəsini rəhbər tutaraq

**Qərara alıram:**

1. Ağcabədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə 9 nəfərdən ibarət seçki komissiyası yaradılsın.

2. Seçki Komissiyasının tərkibi yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının əməkdaşlarından 4 üzv, vətəndaş cəmiyyəti institutu nümayəndələrindən 5 üzv olmaqla aşağıdakı kimi təsdiq edilsin:

**Komissiyanın sədri:**

Rövşən Əhmədov - Rayon İcra Hakimiyyəti başçısının birinci müavini

**Komissiyanın üzvləri:**

Qurban Babayev - Rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri

| | |
|---|---|
| Mərdəli Quliyev | - Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| Solmaz Rəhimova | - Ağcabədi bələdiyyəsinin sədri |
| Əlizadə Nəcəfov | - Ağcabədi rayon Ağsaqqallar Şurasının sədri |
| Əlibala Məmmədov | - "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ehtiyatda olan Zabitlər Konfederasiyası" İctimai Birliyinin Ağcabədi rayon şöbəsinin sədri |
| Şirxan Hüseynov | - Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Ağcabədi rayon bölməsinin sədr müavini |
| İsmayıl Məhərrəmov | - "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" ictimai birliyinin rayon filialının sədri |
| Arzu Niftalıyeva | - Ağcabədi Rayon Təhsil İşçiləri Azad Həmkarlar Komitəsinin sədri |

3. Ağcabədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın tərkibi 15 nəfər müəyyən edilsin.

4. Seçki Komissiyasına tapşırılsın ki, rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində (www.agcabedi-ih.gov.az), "Aran" qəzetində, "aranqazeti.az" internet saytında və digər müvafiq yerlərdə ictimai şuraya namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanması və başa çatması vaxtını elan etsin.

5. Seçki Komissiyasına tapşırılsın ki, Ağcabədi Rayon İcra Hakimiyyəti yanında İctimai şuraya namizədlərin irəli sürülməsi və qeydiyyatını Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.9-cu maddəsinə uyğun olaraq 20 gün müddətində başa çatdırsın və seçkinin həmin əsasnamənin tələblərinə uyğun həyata keçirilməsini təmin etsin.

6. Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə tapşırılsın ki, sərəncamın aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

7. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

8. Rayon İcra Hakimiyyəti başçısının 04 noyabr 2014-cü il tarixli 189 nömrəli sərəncamı qüvvədən düşmüş hesab edilsin.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı — Rafil Hüseynov